Nazım Hikmət

# Ürəyim kirpiklərimin ucunda Və mən bağırmaq istəyirəm: *Pirayə... Pirayə... Pirayə...*



*Nazim Hikmətin eşq macəraları da yaradıcılığı qədər zəngin və rəngarəngdir. O, həyatı boyu dəfələrlə aşiq olmuşdur: Pirayəyə, Münəvvərə, Verаyа ... Amma gözünün ilk ovu - əsl sevgilisi dediyinə görə, Pirayədir.*

*Nazim Hikmət Pirayə ilə 1935-ci ildə - 33 yaşında ikən ailə həyatı qurub. Amma xoşbəxtlikləri qısa sürüb - cəmi-cümlətanı 13 il.*

*Bundan sonra Nazim Hikmətin həbsxana həyatı başlayıb.*

*Nazim Hikmət həbsxanada olduğu müddətdə, demək olar ki, hər gün Pirayəyə məktub yazıb, özü də şeirlə.*

*Pirayə də Nazim Hikməti heç vaxt tək qoymayıb, həmişə yanına - həbsxanaya, görüşünə gəlib. Bir dəfə gələndə də Münəvvəri Nazimin yanında görüb... görüb və çıxıb gedib... birdəfəlik...*

*Amma Nazim Hikmət Pirayəyə yazdığı məktubların arasını kəsməyib, əfv olunmasını istəyib, lakin cavab almayıb - nə "hə", nə "yox"... Pirayə Nazim Hikmətin 1945-ci ilin payızında hər gün axşam saat 9-dan 10-a qədər yazdığı, yəni ona həsr etdiyi məktub-şeirləri ömrünün axırına kimi Osmanlıdan qalma bir taxta sandığın içində bəzək-düzək əşyalarının arasında saxlayıb, qiymətli bir cavahir kimi...*

*Maraqla oxunacağını nəzərə alıb, həmin məktub-şeirləri müəyyən ixtisarla sizə təqdim edirik.*

*Qeyd: "Qüsursuz eşq" şeri o məktub-şeirlərin arasında olmasa da, araşdırmaçılar belə hesab edirlər ki, məhz Pirayəyə yazılmışdır.*

**Tuğba QARADƏMİR**

* * *

Nə gözəl şeydi xatırlamaq səni,
ölüm və həyat xəbərləri içindən, -
həbsdə,
həm də yaşım qırxı keçmişkən...

Nə gözəl şeydi xatırlamaq səni,
bir mavi qumaşın
üstündə unudulmuş əlin
və saçlarında yumşaqlığı,

canım-gözüm İstanbul torpağının...
Sardunya çiçəyinin
barmaqlarının ucunda
qalan ətri...
İçimdə ikinci bir həyat kimidi
səni sevmək səadəti.

Nə gözəl şeydi xatırlamaq səni.
Həbsdə
arxası üstə uzanıb düşünmək:
filancı gün
filancı yerdə söylədiyin söz:
sözün özü deyil, ədasındakı aləm...

Nə gözəl şeydi xatırlamaq səni...
Ağacdan bir şey olmalıyam bu gecə:
bir sırğa
bir üzük
və bir qədər də incə ipək toxumalıyam.
Yerimdən qalxaraq,
pəncərəmdəki dəmir
barmaqlıqlardan yapışaraq,
sənə yazdıqlarımı
hürriyyətin süd bəyazı maviliyinə
bağıra-bağıra oxumalıyam.

Nə gözəl şeydi xatırlamaq səni,
ölüm və həyat xəbərləri içindən,
həbsdə
və yaşım qırxı keçmişkən...

*20 sentyabr 1945-ci il*

* * *

Bu payız gecəsində
içim zaman kimi, torpaq kimi əbədi,
göz kimi çılpaq
əl kimi ağır,
ulduzlar kimi pırıl-pırıl
sözlərinlə dopdolu...
Sözlərin üstümə gəlirlər -
ürəyindən,
beynindən,
bədəninin hər zərrəsindən qoparaq...
Sözlərin - ana,
Sözlərin - qadın,
Sözlərin - insan,
Sözlərin - məhzun və acı,
Sözlərin -
sevincli, ümidli, qəhrəman...

*21 sentyabr 1945-ci il*

* * *

Oğlumuz xəstə...
Mən həbsdə...
Yorğun əllərinin arasına
almısan başını -
Dünyanın halı kimi halımız...

Oğlumuz sağalacaq,
Mən çıxacağam həbsdən,
Güləcək qonur gözlərinin içi -
Dünyanın halı kimi halımız...

*22 sentyabr 1945-ci il*

* * *

Kitab oxuyuram - içində sən,
Türkü dinləyirəm - içində sən,
Əyləşdim, çörəyimi yeyəm -
qarşımda, üzbəüzümdə sən...
Hər yerdə, hər zaman
"hazırı-nazirim" sən,
amma danışmırıq, heç danışmırıq,
duya bilmirik bir-birimizin səsini...
Və sən səkkiz ildir
mənim dul qadınımsan...

*23 sentyabr 1945-ci il*

* * *

Bax, sən indi, bu saat
nə edirsən?
Evdəsən, yoxsa həyətdə?
Yatmısanmı, oyaqsanmı?
Bəlkə qolunu yuxarı qaldırmısan,
Bəlkə dümağ,
totuq biləyin çırılçıplaqdı?

Sən indi, bax, bu saat
nə edirsən?
Bəlkə dizinin üstündə
bir pişik balası var,
sığallayırsan?
Bəlkə addım atmaq üzrədir
hər qara günümdə
səni tıpış-tıpış yanıma gətirən
o canım-gözüm ayaqların?

Bax, sən indi, bu saat
nə edirsən?
Və nə düşünürsən -
mənimi,
yoxsa lobyanın
nədən bu qədər
gec bişdiyinimi?
Yoxsa insanların bədbəxtliyinimi?
Yoxsa...
Yoxsa...
Yoxsa...

*24 sentyabr 1945-ci il*

* * *

Saat 21.
Axşam zəngi çalındı.
Həbsxana hücrələrinin
qapısı bağlandı.
Bu səfər
dustaqlığımız uzun sürdü bir az:
səkkiz il...
Yaşamaq, sevgilim,
səni sevmək qədər
ciddi bir işdir...

*26 sentyabr 1945-ci il*

* * *

Bizi həbs etdilər:
məni divarların içində,
səni divarların çölündə...
Şükürlüdü bizim halımız ...
Ən pisi



insanın
həbsxananı içində daşımasıdır.
Namuslu,
çalışqan
və gözəl
insanların bir çoxu
bu hala salınmış,
hamısı da
səni sevdiyim qədər
sevilməyə layiq...

*30 sentyabr 1945-ci il*

* * *

Səni düşünmək
ümidli bir şey,
dünyanın ən gözəl səsindən
ən gözəl türkünü dinləmək kimi.
Fəqət artıq ümid bəs etmir mənə -
türkü dinləmək deyil,
türkü söyləmək keçir könlümdən...

* * *

Axşam günəşi hopmuş
bir bulud var dağın üstündə.
Sənsiz bomboz keçdi bu gün də.
Gecə səfaları

# 1945-Cİ İLİN PAYIZ ŞEİRLƏRİ

bir azdan açar
qırmızı-qırmızı
və alıb götürər
cəsur qanadlar
vətən ayrılığına
bənzəyən ayrılığımızı...
*2 oktyabr 1945-ci il*

* * *

Xəbərlərlə yüklü
buludlar keçir,

ağır-ağır,
Bürüşür
hələ gəlib çıxmamış
məktub ovcumda.
Ürəyim kirpiklərimin ucunda...
Və mən
bağırmaq istəyirəm:
"Pirayə... Pirayə... Pirayə..."
*7 oktyabr 1945-ci il*

* * *

Dözülməz bir adam oldum yenə:
yuxu bilməz və tərs.
Bəzən
birini söyər,
birini döyər kimi, qızaram.
Bəzən də ağzımda
sönmüş bir siqaret kimi
həzin bir türkü
sabahdan axşama qədər
arxası üstə yataram,
Məni hövsələdən büsbütün çıxarar
özümə qarşı duyduğum
nifrət və mərhəmət...

Dözülməz bir adam oldum yenə:
yuxu bilməz və tərs.
Hər zamankı kimi haqsızam.
Tutduğum iş ayıb və rəzalət.
Fəqət
hamısı sənin üzündən,
qonur gözlüm.
Nə edim, qısqanıram...
*9 oktyabr 1945-ci il*

* * *

Dünən gecə yuxuma girmişdin.
Dizimin dibində oturmuşdun,
Başını qaldırıb,
iri, qonur gözlərinlə
üzümə baxdın.
Bir şeylər soruşdun -
islaq dodaqların açılıb örtüldü,
nə dediyini eşitmədim amma,
səsin gəlmədi.

Gecənin içində
aydınlığa bənzər
bir saat tıqqıltısı,
Havada sonsuzluğun
fışıltısını deyim, uğultusunu deyim -
bir səs...
Qırmızı qəfəsdən gələn türkü -
Memonundur, yoxsa sarı bülbülün?
Və yenicə şumlanmış
bir tarlada
torpağı yarıb çıxan
toxumların çırtıltısı...
Sənin islaq dodaqların
elə hey açılıb örtülür -
eyvah, səsini eşitmirəm ki...
Diksinib oyanıram.
Kitabın üstündə
yuxulamışam sən demə...
Düşünürəm: yoxsa sənin səsin idi
saatın aydınlığa bənzər tıqqıltısı,
sonsuzluğun fışıltısı, uğultusu,
Memonun, bülbülün türküsü,
torpağı yarıb çıxan
toxumların çırtıltısı?
*10 oktyabr 1945-ci il*

* * *

Gözlərinə baxarkən
günəşdə çimmiş
torpaq ətri
vurur məni,
bir taxıl zəmisində
sünbüllərin arasında
qeyb oluram.
Aramsız dəyişən
həyat kimi gözlərin:
sirrini hər gün bir damcı verən,
fəqət heç bir zaman
təslim olub, büsbütün açmayan...
*18 oktyabr 1945-ci il*

* * *

Ölümlə buluşmaq üzrə
Qala qapısından çıxarkən,
Son dəfə dönüb baxdığımız şəhərə,



Sevgilim, bu sözləri
söyləyə biləcəyik:
"Elə də güldürmədin üzümüzü.
Çalışdıq gücümüz çatan qədər
səni bəxtiyar edək.
İçimiz rahat,
könlümüzdə
haqq etdiyimiz
çörəyinə doymuşluq,
gözümüzdə səndən ayrılmanın kə-
dəri,
İştə gəldik, gedirik,
xoşca qal, Hələb şəhəri... "
*27 oktyabr 1945-ci il*

* * *

Bir almanın yarısı biz,
yarısı bu qosqaca dünya,
Bir almanın yarısı biz,
yarısı insanlar,
Bir almanın yarısı sən,
yarısı mən,
ikimiz...
*28 oktyabr 1945-ci il*

* * *

Çoxaldı meyvələrdə ətir,
dənizlərdə uğultular
və budur dolmuş buludları,
mürgülü torpaqlarıyla payız...
Sevgilim,
Yaş işini görmüş,
mənə elə gəlir ki,
bəlkə min illik
bir ömrün macərası

keçdi başımızdan...
Amma biz
günəşin altında
əl-ələ, yalınayaq yüyürən
hər şeyə hələ də təəccüb edən

çocuqlarıq...
*5 noyabr 1945-ci il*

* * *

Çiçəkli badam ağaclarını unut,
Dəyməz
geri gəlməsi mümkün olmayan
şeyləri xatırlamağa.
Görürsən,
get-gedə seyrəlir
göy üzündə ulduzlar,
Sevgilim,
istəsək də, istəməsək də
artıq mövsüm sonbahardır, son bahar.
*8 noyabr 1945-ci il*

* * *

İstanbul evlərinin üstündənmi,
Mərmərə dənizinin altındanmı gəldi
bir az bulud,
bir az dəniz ətri verən səsin -
cəmi-cümlətanı üç dəqiqə çəkdi,
sonra qapandı telefon, qara-qara...
*12 noyabr 1945-ci il*

* * *

Cənub küləyi
damardan axan qan kimi
ılıq və uğultulu-uğultulu
əsməyə başladı.
Havanı dinləyirəm -
nəbzi yavaş-yavaş vurur.
Uludağda - zirvədə qar
və Kirəzli yaylasında
qıpqırmızı şabalıd yarpağının üstündə
şəhanə, şipşirin yatmış ayılar.
Ovada qovaqlar yarpaqlarını soyunur -
bir azdan yuxuya gedəcəklər,
cüyürlər də elə,
dağ-daş da elə,
qurd-quş da elə...
Və biz
yenə də bir qış keçirəcəyik -
müqəddəs ümidimizin istisində
qızına-qızına...
*13 noyabr 1945-ci il*

* * *

İlk dəfə rastlaşdığımız gün
geyindiyin əlbisəni çıxar sandıqdan,
geyin-keçin,
bənzə bahar ağaclarına,
həbsxanadan
məktubun içində yolladığım
qərənfili tax saçlarına,
qaldır,
öpüləsi cizgilərlə
süslənmiş iri, bəyaz alnını,
belə bir gündə
bədbin və kədərli deyil,
gözəl və yaraşıqlı olmalı
Nazim Hikmətin qadını.
*5 dekabr 1945-ci il*

* * *

Bursada dərzi Rəcəbə,
Karabük fabrikasında
dülgər Həsən düşmən,
Fağır Xədicə anaya
Kəndli Süleymana düşmən,
Sənə düşmən, mənə düşmən,
Vətən ki, bunların evidir,
Sevgilim, bunlar vətənə düşmən.
*12 dekabr 1945-ci il*

* * *

Payızın əlində-ovcunda
nə varsa, alır qış.
Öküzlərin ayaqları
yaş torpağa batır, yumşacıq.
Dağlar dumana bürünür.
Çöl ördəkləri
gəlib keçir başımızın üstündən -
hər halda, İznik gölünə gedirlər...
Havadan qar qoxusu duyulur.
İndi çöldə olasan,
dördnala çapasan,
atı dağlara sarı.
"Ata minməyi bacarmırsan" -
deyəcəksən,
Amma zarafatı və qısqanclığı burax,
Həbsdə
məndə yeni bir xasiyyət

əmələ gəldi -
Səni sevdiyim qədər olmasa da,

sevdim təbiəti...
Və indi hər ikiniz məndən uzaqdasınız...
*13 dekabr 1945-ci il*

* * *

Həmişə olduğu kimi
qəfildən gəldi qış...
Sən və İstanbulum
nə haldasınız, kim bilir?
Kömürün varmı?
Odun ala bildinmi?
Pəncərə şüşələrinin qırağına
qəzet yapışdır.
Gecə erkəndən yatağına gir.
Evdə də, yəqin,
satılmalı bir şey qalmayıb.
Yarıac, yarıtox üşümək...
Amma üzülmə, sevgilim,
Hansı qış keçib getməmiş,
bu qış da keçib gedəcək...
*15 dekabr 1945-ci il*

# QÜSURSUZ EŞQ

Artıq qal deməyəcəyəm,
Zatən getməyə də
çox hazırsan bu səfər.
Hər şeyi götür -
xatirələrimi, ümidlərimi, sevgimi -
bəlkə lazımın oldu.
Bir kəlmə də danışmayım deyirəm,
Amma yox,
Danışacağam,
Tanıdığını zənn etdiyin məndən.
Bəzən birini seçsəm də,
rənglərin hamısını sevdim,
mövsümlərin də.
Dənizdən gələcək bir gəmi
gözlədim hər zaman,
Sonra ulduzlara baxdım illərcə,
daha doğrusu,
sən zənn etdiyin bir ulduza.
Şəhərlər gördüm -
hamısını da sevdim,
Eşqlərim də oldu,
həm də uğrunda ölə biləcəyim
eşqlərim,
amma ən çox səni sevdim.
Və indi gedirsən, get,
düşünürəm qəhr olmayacağam
vida səhnəsində...
Amma bilmirəm necə yaxşıdı?
Məni yuxuya verib getməyin,
Yoxsa, elə-belə: üz-üzə, deyə-gülə?..
Məncə, indi get,
Yox, getmə!
Yəni, get də,
Mən uzanım belə,
əvvəlcə üstümü ört,
işığı söndür və get.
Yox, yox, getmə!
Yəni, get də,
amma əvvəlcə işığı yandır -
mən qaranlıqdan qorxuram.
Həm qaranlıq, həm səssizlik -
bir az artıq olmadımı?
Üstümü də örtmə -
bu şəfqət də bir az artıq...
Amma işıqların hamısını yanılı qoy!
İçim dağılır -
fərqi yoxdu.
sən necə gedirsən, get...
Dur, qəlbimi dinlə,
Son dəfə deyirəm:
Səni sevirəm,
Peşman deyiləm,
İstər dön, istər dönmə,
Səninləyəm,
səninləyəm, səninləyəm.

*Hazırladı:* **DİLSUZ**

